**“Sığortaolunanların fərdi uçotunun aparılması Qaydası”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1718-VQD nömrəli Qanununun tətbiqi və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 24 dekabr tarixli 898 nömrəli Fərmanının 2.3.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Sığortaolunanların fərdi uçotunun aparılması Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin elektron informasiya sisteminin aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 20 oktyabr 2020-ci il
401

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2020-ci il 20 oktyabr tarixli 401 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Sığortaolunanların fərdi uçotunun aparılması

## QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 15-6.3-cü maddəsinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasında icbari tibbi sığorta üzrə sığortaolunanların fərdi uçotunun aparılması qaydasını müəyyən edir.

1.2. Fərdi uçot - Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq icbari tibbi sığorta üzrə hər bir sığortaolunan haqqında məlumatların uçotunun təşkili və aparılmasıdır.

1.3. Bu Qaydada istifadə olunan “sığortaolunan” anlayışı “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda verilmiş mənanı ifadə edir.

1.4. İcbari tibbi sığorta üzrə sığortaolunanların fərdi uçotu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (bundan sonra – Agentlik) tərəfindən aparılır.

1.5. Bu Qaydaya əsasən sığortaolunanların fərdi uçotu Agentliyin elektron informasiya sistemində aparılır.

1.6. İcbari tibbi sığorta məqsədləri üçün sığortaolunanın fərdi uçotu fərdi identifikasiya nömrəsinə (FİN) əsasən həyata keçirilir.

1.7. Agentliyin elektron informasiya sisteminin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası və məlumat mübadiləsinin təşkili Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”na uyğun olaraq həyata keçirilir.

### 2. Fərdi uçotun aparılması üçün tələb olunan məlumatlar və onların təqdim edilməsi qaydası

2.1. İcbari tibbi sığorta üzrə sığortaolunanların fərdi uçotu bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulmuş məlumatların Elektron Hökumət İnformasiya Sistemi (EHİS) vasitəsilə Agentliyin elektron informasiya sisteminə ötürülməsi yolu ilə həyata keçirilir.

2.2. Fərdi uçotun aparılması zamanı sığortaolunana dair aşağıdakı məlumatlar toplanılır:

2.2.1. şəxsiyyətini təsdiq edən sənədin tipi;

2.2.2. şəxsiyyətini təsdiq edən sənədin seriyası;

2.2.3. şəxsiyyətini təsdiq edən sənədin nömrəsi;

2.2.4. fərdi identifikasiya nömrəsi (FİN);

2.2.5. vətəndaşlığı;

2.2.6. adı, soyadı, atasının adı;

2.2.7. doğulduğu tarix;

2.2.8. cinsi;

2.2.9. qan qrupu;
2.2.10. yaşadığı ünvan;
2.2.11. işlədiyi müəssisənin ünvanı;
2.2.12. işçinin işə başlama tarixi;
2.2.13. işçinin işdən çıxma tarixi;
2.2.14. pensiyaçının məşğulluq vəziyyəti;
2.2.15. vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN);
2.2.16. qeydiyyat ünvanı;
2.2.17. fəaliyyət ünvanı;
2.2.18. ananın fərdi identifikasiya nömrəsi (FİN);
2.2.19. ölüm tarixi;
2.2.20. ölüm haqqında sənədin verilməsi tarixi;
2.2.21. doğuşun baş verdiyi tarix.

**3. Sığortaolunanın fərdi şəxsi hesabı**

3.1. Sığortaolunanın fərdi uçot məlumatlarına əlçatanlığının təmin edilməsi məqsədilə Agentlik sığortaolunanın fərdi şəxsi hesabını yaradır və Vahid Giriş Sistemi ("Asan Login") vasitəsilə şəxsi hesaba giriş imkanlarını təmin edir.

3.2. Sığortaolunanın fərdi şəxsi hesabı sığortaolunanın fərdi uçot məlumatlarını, icbari tibbi sığorta üzrə hesablanmış və ödənilmiş icbari tibbi sığorta haqlarını, sığortaolunan üçün həyata keçirilmiş sığorta ödənişi məbləğlərini, ödənilməli olan icbari tibbi sığorta haqları üzrə borc məbləğini və sığortaolunanın icbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlərdən istifadə hüququnu təsdiq edən icbari tibbi sığorta şəhadətnaməsini özündə əks etdirir.